# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№272/2** **25 dekabr 2015-ci il**

## «Auditor təşkilatlarının firmadaxili standartlarının hazırlanmasına dair metodik göstəriş»in hazırlanması barədə

Auditor təşkilatlarının normativ bazasının və iqtisadi subyektlərin maliyyə hesabatlarının auditinin təşkili işinin təkmilləşdirilməsi məqsədilə, "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası"nda (2012-2020-ci illər) və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 16 dekabr tarixli 258/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.4 "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndində nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar təsdiq edilmiş plan-proqramın 6-cı «Auditor təşkilatlarının firmadaxili standartlarının hazırlanmasına dair metodik göstəriş» bəndinin icrasını təmin etmək məqsədilə sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbov tərəfindən işlənib hazırlanmış «Auditor təşkilatlarının firmadaxili standartlarının hazırlanmasına dair metodik göstəriş»in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. «Auditor təşkilatlarının firmadaxili standartlarının hazırlanmasına dair metodik göstəriş» təsdiq edilsin (əlavə edilir).
2. Auditor təşkilatlarına tövsiyə edilsin ki, öz firmadaxili standartlarını hazırlayarkən bu metodik göstəriş əsas götürülsün.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bu metodik göstərişin tətbiqinə dair auditor təşkilatlarının nümayəndələri üçün 2016-cı ilin I rübündə müvafiq seminarın keçirilməsini təmin etsinlər.
4. Bu qərarın və metodik göstərişin mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**